

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 176 (21.328)

*9 sentyabr 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də San-Marino Respublikasının xarici işlər naziri Paskal Valentinini qəbul edib.

Dövlətimizin başçısı San-Marino Respublikasının Kapitan-Regentlərinin birinci Avropa Oyunlarının açılışında iştirakının, onlarla keçirdiyi görüşlərin və aparılan geniş fikir mübadiləsinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Prezident İlham Əliyev əlaqələrimizin inkişafı üçün imkanların müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb. Dövlətimizin başçısı San-Marino Respublikasının xarici işlər nazirinin ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizin genişləndirilməsi ilə bağlı müxtəlif məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirib.

San-Marino Respublikasının xarici işlər naziri Paskal Valentini səfər proqramının geniş olduğunu deyib. O bildirib ki, son 2 ay ərzində San-Marinodan iki nümayəndə heyətinin Azərbaycana səfər etməsi ölkəsinin Azərbaycan ilə əlaqələri genişləndirmək də maraqlı olduğunu nümayiş etdirir.



## Payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində muxtar respublikanın təhsil müəssisələrində payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Kollegiya iclasında təhsil naziri Piri Nağıyev məruzə ilə çıxış edib.***

Bildirilib ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib və digər təşkilatlarla yanaşı, təhsil müəssisələrinin də payız-qış mövsümündə fasiləsiz fəaliyyətinin təmin olunması ilə bağlı konkret tapşırıqlar verilib.

Qeyd olunub ki, 2015-2016-cı tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 216 ümumtəhsil məktəbi, 44 məktəbdənkənar müəssisə, 2 orta ixtisas məktəbi, 1 peşə liseyi və 4 peşə məktəbi fəaliyyət göstərəcəkdir. Əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də aparılan tikinti-quruculuq işləri muxtar respublikamızda müasir istilik sistemi qurulan təhsil müəssisələrinin sayının artmasına səbəb olub. Belə ki, 2015-ci ildə Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni binanın əsaslı şəkildə yenidən qurulması, Naxçıvan Musiqi Kollecinin binasının əsaslı təmiri, Şərur rayonunda Kürçülü, Şərur şəhər 2 nömrəli, Oğlanqala, Axaməd, Yuxarı Yaycı məktəblərinin tikintisi həyata keçirilir. Eyni zamanda bu il fəaliyyətə başlayacaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə də quruculuq işləri aparılır. Təhsil müəssisələrinin tikintisi başa çatdıqdan sonra Naxçıvan şəhəri üzrə 32, Şərur rayonu üzrə 47 təhsil müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaqdır. Muxtar respublikada peşə təhsilinin inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində Ordubad Şəhər Texniki-Peşə və Sürücülük Məktəbi üçün bina əsaslı şəkildə yenidən qurulur. Bununla yanaşı, Ordubad rayonunda Gilançay, Tivi, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Xəlilli, Xal-xal, Yarımca, Culfa rayonunda Saltaq, Qızılca və Gal kənd tam orta məktəblərinin tikintisi və ya yenidən qurulması davam etdirilir. Qeyd olunan təhsil müəssisələrinin istilik sisteminə qoşulması başa çatdıqdan sonra Babək rayonu üzrə 34, Ordubad rayonu üzrə 27, Culfa rayonu üzrə 28 təhsil müəssisəsi yeni istilik sistemi ilə fəaliyyət göstərəcəkdir. Şahbuz və Kəngərli rayonları da muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işlərindən bəhrələnməkdədir. Şahbuz rayonunda Daylaqlı, Kəngərli rayonunda Yurdçu kənd tam orta məktəblərinin tikintisi həyata keçirilir. Növbəti tədris ilində ümumilikdə, Şahbuz rayonu üzrə 25, Kəngərli rayonu üzrə 17, Sədərək rayonu üzrə isə 9 təhsil müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaqdır.

Bildirilib ki, 2015-ci ildə aparılan tikinti-quruculuq işləri başa çatdıqdan sonra muxtar respublikamızda daha 14 təhsil müəssisəsi payız-qış mövsümündə istilik sistemlərinə qoşulacaq, nəticədə, cari tədris ilində istilik sistemləri ilə işləyən müəssisələrimizin sayı 219 olacaqdır. Yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərimizin də sayının artmasına səbəb olub. Belə ki, 2015-2016-cı tədris ilində muxtar respublikada fəaliyyət göstərəcək 216 ümumtəhsil məktəbindən 206-sı (95,37 faizi) beşgünlük iş həftəsi ilə, 10-u (4,62 faizi) isə 6 günlük iş həftəsi ilə fəaliyyət göstərəcəkdir. Bu da, öz növbəsində, tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə töhfəsini verəcəkdir.

Vurğulanıb ki, muxtar respublikada neft sobası ilə qızdırılan təhsil müəssisələrində tədris prosesinin lazımi səviyyədə təşkili məqsədilə məktəblərdə təhlükəsizlik texnikası qaydalarına əməl olunması, qum meydançalarının hazırlanması və mal-materialdan səmərəli istifadə olunması Təhsil Nazirliyi və rayon (şəhər) təhsil şöbələri tərəfindən nəzarətə götürülməlidir. Bununla yanaşı, qazanxanalarda işləyən mövsümi işçilərin kurslara cəlb olunaraq təlimatlandırılması işi davam etdirilməli, müəyyən olunmuş təhlükəsizlik normaları çərçivəsində elektrik enerjisi və təbii qazdan istifadə ilə bağlı təhsil müəssisələrində müvafiq izahat işləri aparılmalıdır. Təhsil şöbələrində qış mövsümü ilə əlaqədar nəzarət komissiyaları yaradılmalı və vaxtaşırı reydlər keçirilməli, gözətçilərin fəaliyyətinə nəzarət edilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Səbuhi HƏSƏNOV**

***Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Babək Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev məruzə edib.***

Məruzəçi bildirib ki, növbəti payız-qış mövsümünə hazırlıqla əlaqədar bütün qazanxanalara baxış keçirilib və müəyyən edilən kiçik nasazlıqlar aradan qaldırılıb, qazanxanalar saz vəziyyətə gətirilib. Belə ki, rayon mərkəzində yerləşən 29 təşkilatdan 25-i, dördmərtəbəli inzibati bina, beş mərtəbəli 60 mənzilli yaşayış binası, rayonda fəaliyyət göstərən 36 təhsil müəssisəsindən 27-si, 33 səhiyyə müəssisəsindən 25-i, 76 mədəniyyət müəssisəsindən 51-i qazanxana ilə qızdırılacaq. Bundan əlavə, 4 təşkilat qazla, 35 müəssisə ağ neftlə, 7 obyekt isə maye qazla isidiləcək.

Rayonda yeni mövsümdə istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə rayon Elektrik Şəbəkəsi tərəfindən bir sıra işlər görülüb, ümumilikdə, 42 ədəd 10/0,4 kilovoltluq yarımstansiya təmir edilib, yararsız vəziyyətdə olan 582 ədəd dirək yenisi ilə əvəz olunub. 53 min 410 metr məsafədə yararsız məftillər təzələnib. Eyni zamanda mövsümlə əlaqədar rayon ərazisində istehlakçıların fasiləsiz təbii qazla təminatı üçün də müəyyən tədbirlər görülüb. Yeni tikilən 131 evə qaz xətti çəkilib, korroziyaya uğrayaraq sıradan çıxan 3344 metr müxtəlif diametrli qaz xətləri yenisi ilə əvəz edilib. 1500 metr müxtəlif diametrli qaz xəttinin yeri dəyişdirilib.

Rayonun idarə, müəssisə və təşkilatlarında işləyən 95 nəfər mühafizəçinin, həmçinin rayon Kommunal Müəssisələr Kombinatının



53 nəfər işçisinin noyabr ayının əvvəllərində qış geyimi ilə təmin edilməsi nəzərdə tutulub.

İcra başçısı bildirib ki, son illərdə muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Babək rayonunda da həyata keçirilən irimiqyaslı tikinti-quruculuq, abadlıq işləri, infrastruktur təminatının ən yüksək səviyyədə həyata keçirilməsi 1995-ci illə müqayisədə payız-qış mövsümünə hazırlıqla bağlı görüləcək işlərin miqyasına və mahiyyətinə əhəmiyyətli dərəcədə təsir edib. Əgər bir neçə il əvvəl həddindən artıq yükləmə nəticəsində tez-tez sıradan çıxan transformatorlarla bağlı çətinlikləri aradan qaldırmaq lazım gəlirdisə, indi, sadəcə, elektrik dirəklərində və xətlərində yeni mövsümlə bağlı cari təmir işləri aparmaq lazım gəlir. Ancaq işlərin bu qədər asanlaşması əməkdaşlarda arxayınçılıq yaratmamalı, payız-qış mövsümünün uğurla başa çatdırılması, rayon ərazisindəki yaşayış məntəqələrinin, idarə və müəssisələrin, təhsil və səhiyyə ocaqlarının, digər sosial obyektlərin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, su, istilik və digər kommunal xidmət növləri ilə təmin edilməsi üçün tədbirlər həyata keçirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Suvarma və içməli su təchizatı daha da yaxşılaşdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən avqust ayında su anbarlarından, nasos stansiyalarından, subartezian quyularından verilən suvarma suyundan səmərəli istifadə olunması daim nəzarətdə saxlanılıb, payız əkini sahələrini suvarma suyu ilə təmin etmək üçün bütün kanal, arx, hidrotexniki və digər qurğularda tələb olunan işlər yerinə yetirilib.

Bu dövrdə 1,58 kilometr sahilbərkitmə işləri aparılıb, 8,1 kilometr kanal, 30,6 kilometr ara arxları, 8,9 kilometr kollektor lildən təmizlənib, 350 metr suvarma, 1 kilometr təzyiqli boru xətti təmir olunub. Həmçinin 2,9 kilometr yeni suvarma xətti çəkilməsi suvarma tədbirlərinin səmərəli təşkilinə şərait yaradıb. Ötən ay subartezian quyularının qazıntısı və təmiri işləri də davam etdirilib. Komitənin Subartezian İdarəsi tərəfindən 86 subartezian quyusu təmir olunub, 11 subartezian quyusuna yeni nasos qoyulub. Ay ərzində Araz çayında torpaqların yuyulmasının qarşısını almaq üçün 600 metr sahilbərkitmə işi aparılıb, Vayxır sol sahil kanalının qidalandırdığı yeraltı suvarma şəbəkəsində təzyiqquricuların və elektromaqnit sayğacların quraşdırılması işləri davam etdirilib.

Əhalinin içməli suya olan tələbatının ödənilməsi istiqamətində görülən işlər çərçivəsində ötən ay muxtar respublika ərazisində 4 kilometr içməli su, 460 metr kaptaj xətti təmir olunub, 6,22 kilometr yeni içməli su və 1,47 kilometr yeni kaptaj tikilib istifadəyə verilib. Kaptajlarda içməli suyun sərfini artırmaq məqsədilə bulaqlardan 600 metr içməli su xətti çəkilərək əsas xəttə birləşdirilib. Naxçıvan şəhərində, Culfa və Şahbuz rayonlarında çirkab sutəmizləyici qurğuların tikintisi davam etdirilir. Hazırda obyektlərdə avadanlıqların quraşdırılması işləri aparılır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Saltaq kəndində kompleks quruculuq işləri aparılır

Muxtar respublikanın digər bölgələri kimi, dağlıq və dağətəyi zonada yerləşən Culfa rayonunda da yeni quruculuq ünvanlarının sayı artır.

Hazırda Saltaq kəndində kompleks quruculuq işləri aparılır. Belə ki, cari ilin mart ayından burada zirzəmi ilə birlikdə dördmərtəbəli məktəb binasının tikintisinə başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsi tərəfindən tikintisi aparılan məktəb binası 215 şagird yerlikdir. Hazırda dördüncü mərtəbədə hörgü işləri, digər mərtəbələrdə isə müxtəlif tikinti tədbirləri yerinə yetirilir. İş icraçısı Ağayar Məhərrəmovun bildirdiyinə görə, müasirtipli layihə əsasında inşa olunan məktəb binasında işlər tamamlandıqdan sonra geniş və işıqlı sinif, kompüter, şahmat otaqları, elektron lövhəli sinif, laboratoriya, idman zalı, hərbi kabinə, kitabxana, həyətdə açıq idman qurğuları müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Kənddə mövcud olan köhnə məktəb binası isə müasir layihə əsasında yenidən qurulur. Burada kənd və xidmət mərkəzləri, eyni zamanda həkim ambulatoriyası fəaliyyət göstərəcək.

**Xəbərlər şöbəsi**

***Qlobal tarazlaşma proseslərinin getdiyi, iqtisadi, siyasi təlatümlərin yaşandığı bir dövrdə sürətli sosial-iqtisadi inkişafı qoruyub saxlamaq, onu davam etdirmək çətin, bəzən mümkünsüzdür. Reallıqdır ki, inkişaf etmiş bəzi ölkələr də bu təlatümlərin təsiri nəticəsində ciddi maliyyə böhranı ilə üz-üzə qalır, bundan özünü sığortalaya bilmirlər. Bu gün fəxrlə deyə bilərik ki, ulu öndər Heydər Əliyev siyasi xəttinə daim sədaqətli olan Naxçıvan Muxtar Respublikası bundan daha çətinini gerçəkləşdirməklə inkişafın Naxçıvan modelini yaradıb. Muxtar respublikamız 24 illik blokada dövrünün son 20 ili ərzində bir sıra ciddi maneələri dəf edərək sosial-iqtisadi yüksəlişə nail olmaqla bərabər, həm də bu proseslərin davamlı xarakter almasını təmin edib. Ötən avqust ayında görülən işlər, əldə olunan nəticələr, müəyyənləşdirilən yeni hədəflər də bu inkişafın davamlı xarakter aldığını bir daha sübut edir.***



*İcmal*

# Əldə olunan nəticələr, müəyyənləşdirilən yeni hədəflər muxtar respublikada inkişafın davamlı xarakter aldığını bir daha sübut edir

## *Ötən ayın ümumi mənzərəsini məhz belə ifadə etmək olar*

Avqust ayının mənzərəsinə nəzər yetirdikdə bəzi mühüm məqamlar diqqəti cəlb edir. Ötən ay muxtar respublikamızda aparılan kompleks quruculuq və abadlıq işlərinin geniş miqyas aldığını gördük. Eyni zamanda tarixi keçmişimizə, Naxçıvanın yetişdirdiyi dəyərli tarixi şəxsiyyətlərə böyük hörmətin, ehtiramın, gələcəyimizi müəyyənləşdirəcək olan təhsilimizə, o cümlədən gənclərimizə daim böyük diqqət göstərildiyinin növbəti dəfə şahidi olduq. Sevindirici haldır ki, muxtar respublikamızda sürətli yüksəliş təmin olunmaqla yanaşı, milli-mənəvi dəyərlərimiz də yaşadılır, ordu quruculuğunda, cəmiyyətimizin maariflənməsində rol oynayan və nəsillərə nümunə olan şəxsiyyətlər daim xatırlanır, gənclərə nümunə göstərilir, vətənpərvər, çalışqan, öz işini mükəmməl bilən yeni nəslin yetişdirilməsi istiqamətində əsaslı addımlar atılır. Yəni gələcəyə hesablanmış milli inkişaf strategiyası muxtar respublikamızda bütün istiqamətlər üzrə məqsədyönlü şəkildə reallaşdırılır.

Avqust ayında muxtar respublikada həyata keçirilən quruculuq və abadlıq işlərinin müsbət nəticələrini Kəngərli rayonunun timsalında bir daha gördük. Ötən dövr ərzində burada rayon mərkəzi üçün tələb olunan bütün layihələr həyata keçirilib, təhsil, mədəniyyət, səhiyyə obyektləri tikilib, idarəetmə orqanları üçün yeni inzibati binalar istifadəyə verilib. Təkcə 2015-ci ilin ötən dövründə Kəngərli Rayon Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbi və Elektrik Şəbəkəsi üçün yeni binalar istifadəyə verilib. Hazırda Yurdçu kəndində yeni sosial obyektlərin inşası davam etdirilir, kənd yolu abadlaşdırılır.

Bu gün "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Kəngərli rayonunda da uğurla icra olunur. Dövlət proqramına uyğun olaraq, ötən dövrdə rayonda kompleks quruculuq tədbirləri həyata keçirilib. İstifadəyə verilən müasir sosial obyektlər əhaliyə göstərilən xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, rayonun mərkəzi olan Qıvraq qəsəbəsini də müasir yaşayış məntəqəsinə çevirib. Bu tədbirlərin davamı olaraq, avqustun 7-də Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksi istifadəyə verilib. Kompleksin tərkibinə ticarət mərkəzi, mağazalar, şadlıq sarayı və digər xidmət sahələri daxildir.

Bir neçə xidmət sahəsini özündə birləşdirən bu kompleksin istifadəyə verilməsi təkcə Qıvraq qəsəbəsinin 6 minədək sakininin deyil, bütövlükdə, rayon əhalisinin rahatlığına xidmət edir. Digər tərəfdən, burada həm də 100-ə yaxın yeni iş yeri açılıb.

Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksinin istifadəyə verilməsi dövlətin öz vətəndaşlarına göstərdiyi qayğının və ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılan şəraitin nəticəsidir. Yeri gəlmişkən qeyd edək ki, hazırda Kəngərli rayonunda 12 hüquqi, 391 fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

Kəngərli nəslinin yetirməsi olan görkəmli hərbi xadim, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolu, hərbi fəaliyyəti gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il aprelin 2-də "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunub, görkəmli sərkərdənin yubileyi silsilə tədbirlərlə qeyd olunub. Avqustun 18-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və tədbir iştirakçıları teatrın foyesində Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə həsr olunmuş sərgiyə baxıblar. Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"...Cəmşid Naxçıvanski nəsillərə nümunə olan hərb xadimidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında 2015-ci il 2 aprel tarixli Sərəncamında qeyd olunduğu kimi: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksəkixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir".***

***Cəmşid Naxçıvanski şəxsiyyətinin böyüklüyü ondadır ki, bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qorumuş, həyatının məqsədini vətənə xidmətdə görmüşdür".***

Ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq insanlara hərtərəfli bilik və bacarıqların verilməsi məqsədilə muxtar respublikamızda təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilir. Məhz bunun nəticəsidir ki, son 10 ildə Naxçıvan Muxtar Respublikasında 66 min 736 şagird yerlik 165 məktəb binası tikilib və ya yenidən qurulub. Hazırda ümumtəhsil məktəblərində 3 min 700 kompüter, 600-dən çox elektron lövhə vardır. Məktəblərdə interaktiv tədris metodlarından istifadə olunur, elektron və distant təhsil tətbiq edilir. Həmçinin müasir təhsil praktikası nəzərə alınaraq elm və ali təhsil müəssisələrinin elmi dərəcəsi olan əməkdaşlarının ümumtəhsil məktəblərində nümunəvi dərsləri də təşkil olunur. Həyata keçirilən bu tədbirlər təhsildə ciddi irəliləyişə səbəb olub, tədrisin keyfiyyəti artıb. Bu il muxtar respublikanın ümumtəhsil məktəbi məzunlarından 313-ü ali məktəblərə qəbulda 500-700 arasında bal toplayıb. Bir məzunumuz isə ən yüksək nəticə göstərib.

Avqustun 21-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə keçirilən görüşdə bu məsələyə bir daha diqqət yetirilib. Həmin görüş təkcə muxtar respublika rəhbəri ilə deyil, eyni zamanda gənclərin hamisi ilə görüş kimi yaddaşlarda qalıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək tələbə adını qazanmış bütün məzunları, onların müəllimlərini və valideynlərini təbrik edərək deyib: ***"O dövlət inkişaf edir ki, onun güclü elmi potensialı var, orada təhsilin inkişafı əsas vəzifələr sırasındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu zərurəti nəzərə alaraq bildirmişdir ki, "Təbii sərvətlər tükənəcək, elm, bilik isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir".***

Həqiqətən də, təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həmçinin insanların həyatının daha yüksək səviyyədə qurulmasına zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Ümumilikdə isə yüksək təhsil xalqımızın tərəqqisi üçün vacib amil kimi həmişə diqqət mərkəzində olub.

Muxtar respublikamızda ali təhsil müəssisələrinə göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, məzunlar ixtisas seçimi zamanı Naxçıvanda fəaliyyət göstərən bu müəssisələrə daha çox üstünlük veriblər. 2015-ci ildə 1137 nəfər, yaxud qəbul olunanların 72 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçiblər.

Bu gün təhsil və təhsil işçilərinə böyük diqqət göstərilir. Vaxtilə nə cəmiyyət, nə də həmin dövrdə mövcud olan dövlət elmin, təhsilin inkişafına birmənalı şəkildə maraq göstərmirdi. Bu məqamda XX əsrin əvvəllərində çox ağır bir şəraitdə bu sahədə böyük fədakarlıqla fəaliyyət göstərən görkəmli pedaqoqlarımızı, maarifçilərimizi bir daha xatırlayırıq. Onlar bütün çətinliklərə sinə gərərək xalqımızın maariflənməsi, dünya arenasında özünəlayiq yer tutması üçün əllərindən gələni əsirgəmirdilər, qarşılaşdıqları ciddi maneələrə, problemlərə baxmayaraq, bu yolda çalışırdılar. Buna görə dövlət onlara maaş verməkdə maraqlı deyildi. Ancaq həmin fədakar insanlar, dəyərli müəllimlər yenə də tutduqları bu müqəddəs yoldan dönmürdülər. Bu il muxtar respublikamızda həmin şəxsiyyətlərdən birinin – maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi geniş tədbirlərlə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Tədbirlər Planına əsasən, maarifçi şairin yubileyi ilə əlaqədar təhsil və mədəniyyət müəssisələrində guşələr yaradılıb, Sidqinin yaradıcılığı tədqiq olunub, "Naxçıvan" jurnalının bir nömrəsi Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinə həsr edilib.

Ulu öndər Heydər Əliyev Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək deyib: ***"Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur".*** Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli Sərəncamı Sidqinin həyat və yaradıcılığına verilən yüksək dəyər və qiymətdir. Sərəncama uyğun olaraq, Ordubad şəhərində görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyi üçün yeni bina tikilib.

Avqustun 25-də muzeyin açılış mərasimində Ali Məclisin Sədri Məhəmməd Tağı Sidqi yaradıcılığının böyük bir xəzinə olduğunu bildirərək deyib ki, bu xəzinədən gənclərin yetişməsində məqsədyönlü istifadə etmək təhsil müəssisələrinin və pedaqoji kollektivlərin borcudur.

Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin istifadəyə verilməsi onun zəngin pedaqoji və ədəbi irsinin yaşadılması, bugünkü və gələcək nəsillərə çatdırılması istiqamətində atılan növbəti addımdır. Ev-muzeyi həm də görkəmli maarifçiyə ucaldılan böyük bir abidədir. Bu muzeyin yaradılması ədibin ömür yoluna olan ehtiramın, fəaliyyətinə və yaradıcılığına verilən yüksək dəyərin bariz ifadəsidir. Bu həm də görkəmli şəxsiyyətin bir zamanlar Naxçıvanda təhsilin və milli inkişafın güclənməsi üçün göstərdiyi əvəzsiz xidmətlərə verilən ən layiqli qiymət, onun fədakar müəllim əməyi və fəaliyyətini bu günün və gələcəyin müəllimlərinə təbliğ etmək kimi mühüm əhəmiyyət daşıyır.

Bu gün əminliklə deyə bilərik ki, inkişafın əsasını təşkil edən sabitliyin, ictimai asayişin və təhlükəsizliyin qorunması muxtar respublikada tam təmin edilib. Bu tədbirlər çərçivəsində yol hərəkətinin təhlükəsizliyinin təmin olunması istiqamətində də mühüm işlər görülür. Avqustun 25-də Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzinin son illər muxtar respublikada istifadəyə verilən üçüncü müayinə mərkəzi olduğunu bildirib, bu münasibətlə kollektivi təbrik edib. Ali Məclisin Sədri deyib: ***"Bu gün muxtar respublikada cinayətsiz region və hadisəsiz yollar prinsipi reallığa çevrilmişdir. Son illər muxtar respublikada istifadədə olan yollar müasir səviyyədə qurulmuş, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün lazımi şərait yaradılmışdır. İstismar müddəti başa çatan yararsız avtomobillərin istismardan çıxarılması, muxtar respublikada fəaliyyət göstərən sürücülük məktəblərinin müasir tələblər səviyyəsində qurulması, sürücülərin hərtərəfli hazırlanması, tələbkarlığın və məsuliyyətin artırılması yollarda hadisələrin sayının azalmasına səbəb olmuşdur. Bu işdə dövlət yol polisinin də üzərinə mühüm vəzifələr düşür. Çünki xidmətin düzgün təşkili də yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında başlıca şərtdir".***

Ali Məclisin Sədri xidməti düzgün təşkil etdiklərinə görə kollektivə təşəkkür edib, onlara işlərində uğurlar arzulayıb, binada yaradılan şəraitlə tanış olub.

Kəskin kontinental iqlimə malik olan muxtar respublikamızda payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvanın bütün yaşayış məntəqələri elektrik enerjisi və təbii qazla tam təchiz olunub. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 7 elektrik stansiyasından 6-sı son 20 ildə istismara verilib. Bu stansiyalar vasitəsilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatı ödənilir. Bununla yanaşı, əhalinin sayının artmasına paralel olaraq, məskunlaşma səviyyəsinin də ilbəil artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə, təbii qaza olan tələbatı artırır. Artan tələbata uyğun olaraq, ənənəvi enerji mənbələri ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələrindən də istifadə diqqət mərkəzində saxlanılır, muxtar respublikanın relyef və iqlim xüsusiyyətləri nəzərə alınaraq yeni stansiyaların quraşdırılması davam etdirilir. Hazırda Ordubad rayonu ərazisində 36 meqavat gücündə su elektrik stansiyasının, Babək rayonunun Xal-xal kəndi yaxınlığında isə 20 meqavat gücündə Günəş elektrik stansiyasının tikintisi davam etdirilir. Energetika infrastrukturunun yenilənməsi də nəzarətdə saxlanılır, mövcud yarımstansiyalarda yenidənqurma işləri aparılır. İstehlakçıların təbii qazla təchizatının daha da yaxşılaşdırılması, yol verilmiş itkilərin minimal həddə saxlanılması istiqamətində işlər davam etdirilir. İstismar müddətini başa vurmuş, qəzalara və qaz sızmalarına səbəb ola biləcək xətlərin dəyişdirilməsi üçün tədbirlər görülür.

Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədəki çıxışında bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri aidiyyəti qurumlara konkret tapşırıqlar verib. Qeyd olunub ki, əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən xüsusi diqqət yetirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

*Göründüyü kimi, muxtar respublikamızda bütün sahələrdə inkişaf proseslərinin davamlı xarakter alması, qarşıya çıxa biləcək problemlərin vaxtında həllinə nail olunması istiqamətində ardıcıl iş görülür. Qızmar yay günündə payız-qış mövsümünə hazırlıqla bağlı konkret hədəflərin müəyyənləşdirilməsi, bununla bağlı müvafiq tapşırıqların verilməsi gələcəyimizin etibarlı əllərdə olduğunu bir daha sübut edir.*

**Rauf ƏLİYEV**

***Naxçıvan Muxtar Respublikasının ən ucqar kəndlərindən biri olan Tivi rayon mərkəzindən – Ordubad şəhərindən, təxminən, 60 kilometr uzaqlıqda yerləşir. Zəngəzur silsiləsinin ətəyində yerləşən Tivi özünəməxsus təbiəti, dağların əhatəsindəki yaşıl vadini xatırlatması, həmçinin buradakı mineral tərkibli çoxsaylı bulaqları ilə diqqəti cəlb edir. Haqqında məlumatım olsa da, ilk dəfə üz tutduğum bu kəndi öz gözlərimlə görmək istəyimin əsas səbəbi isə builki qəbul imtahanlarında kənd məktəbi məzunlarının yüksək nəticələr qazanması idi.***

# Tivi öz təhsil ənənələri ilə həmişə fərqlənib



Uçqar bir dağ kəndindəki məktəbin nəticələri ilə yanaşı, həmin kənddə tikinti-quruculuq işlərinin aparılması da digər bir diqqətçəkən məqam idi.

Dağların, qayaların bizə yoldaşlıq etdiyi səfərimizdə mənzil başına çatanda Günəşin xoş təbəssümü ilə bərabər, xəfif küləyin ürəyi sərinlədən salamı da xüsusi qeyd olunmalıdır.

Gələcəyimizi əvvəlcədən bilən Tivi kənd tam orta məktəbinin direktoru Məhəmməd Ağayevin "Kənd adət-ənənəsini pozmaq olmaz, qonağa əvvəlcə bir stəkan çay verərlər" ərkiylə razılaşıb gül-çiçəkli həyətində, elə çay süfrəsi ətrafındaca söhbətimizə başlayırıq.

Məhəmməd müəllim əvvəlcə builki nəticələr haqqında məlumat verir. Deyir ki, məktəbimiz başa vurduğumuz tədris ilində 19 məzununu yola saldı. Məzunlardan 15-i ali məktəblərə sənəd verdi və onların da 9-u müxtəlif ali təhsil müəssisələrinin tələbəsi adını qazandı.

Bu il muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbi məzunlarından 313-ü ali məktəblərə qəbulda 500-700 arasında bal toplamışdır ki, onların da 3-ü Tivi kənd tam orta məktəbinin payına düşür. Belə ki, məktəbin məzunlarından Fuad Səfərov 661 balla Bakı Ali Neft Məktəbinin Kimya mühəndisliyi ixtisasına, Gövhər Cəfərova isə 567 balla Bakı Dövlət Universitetinin Kompüter elmləri ixtisasına qəbul olunublar. Bunlardan əlavə, məktəbin məzunlarından Nubar Qafarova (500 bal), Əmrah Əliyev (475 bal), Onur Ağayev (437 bal) və digərləri də müəllimlərinin başını uca edərək ali məktəblərin tələbəsi adına layiq görülüblər.

Məhəmməd müəllimlə məktəbin pedaqoji kollektivi haqqında da söhbət edik. Öyrəndik ki, Tivi kənd tam orta məktəbində 22 müəllim dərs deyir. Və ən maraqlı məqam ondan ibarətdir ki, bu müəllimlərin hər biri kəndin öz yetirmələridir. Bu ənənə son illər də davam etdirilir, kənd məktəbinə Tivinin yetirməsi olan gənc kadrlar cəlb olunur. Belə ki, riyaziyyat fənni üzrə Xanım Abutalıbova, ibtidai sinif müəllimliyi üzrə isə Şəfanə Məmmədova son iki ildə vaxtı ilə dərs aldıqları müəllimləri ilə çiyin-çiyinə işləmək üçün öz doğma məktəblərinə üz tutublar.

Adı və dadı ilə məşhur olan Ordubad limonunun ətir qatdığı çaylarımızı içib Məhəmməd müəllimlə birlikdə yoxuş yuxarı yeni tikilən məktəbə tərəf yollanırıq. Yolda rastlaşdığımız Nüşabə müəllimə də söhbətimizə qoşulur. Bu məktəbin uğurlarında rol oynayan təcrübəli müəllimlərdən danışır, onların da böyük əməyi olduğunu bildirir. Onlardan Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən Emil Əliyev, fizika müəllimi Müşfiq Xəlilov, riyaziyyat müəllimi Hüsaməddin Abutalıbov, tarix fənnini öyrədən Nüşabə Səfərova, coğrafiya müəllimi Hüseynəli Quliyev, həmçinin ibtidai sinif müəllimləri Süleyman Hüseynov, Razilə Səfərova və digərləri öz şagirdlərinə təkcə bildiklərini öyrətmirlər, həm də onları vətənpərvər böyüdürlər.

Bu yerdə kənddə məktəbin tarixçəsi ilə maraqlanıram. Nüşabə müəllimə bildirir ki, bu kənddə ilk məktəb hələ ötən əsrin lap əvvəllərində, çar hökuməti zamanı açılıb. O vaxt kənddə bir-iki sinifli məktəb olsa da, çar hökuməti dağılandan sonra 7 illik məktəb yaradılıb və çar divanxanası müəllim və şagirdlərin ixtiyarına verilib. Ta ki, 1956-cı ilə kimi. Həmin ildən 10 illik məktəbə çevrilən təhsil ocağı həm də yeni binaya köçüb. 2004-cü ildə isə muxtar respublikanın digər kəndləri kimi, Tividə də yeni məktəb tikilərək istifadəyə verilib. Onu da qeyd edim ki, bu kənd öz təhsil ənənələri ilə həmişə fərqlənib. Məzunlarımız hər il yüksək ballarla ali məktəblərə qəbul olunurlar.

Dövrün sürətli inkişaf edən texniki tələbləri bu il kənd məktəbinin əsaslı şəkildə yenidən qurulmasını şərtləndirib. Bunun da nəticəsidir ki, may ayında – ötən dərs ili yekunlaşdıqdan sonra kənd məktəbində əsaslı yenidənqurma işlərinə başlanılıb.

Kəndin mərkəzinə çatanda qaynar iş ab-havasıyla qarşılaşırıq. Ağırtonnajlı maşınların səs-küyü, usta və fəhlələrin vahid komanda kimi çalışması… Gördüklərimi fotoaparatımızın yaddaşına köçürüb tikinti işlərinə rəhbərlik edən Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin rəisi Əkrəm Salmanovla söhbətləşirik. O, məktəbdəki yenidənqurma işləri ilə yanaşı, kənddə aparılan digər tikintilər barədə də məlumat verir.

Belə ki, kənddə may ayından etibarən 3 mərtəbəli kənd mərkəzi, 3 mərtəbəli həkim ambulatoriyası, 1 mərtəbəli xidmət mərkəzi tikilir. Biləv kəndindən Tivi kəndinə kimi olan, təxminən, 15 kilometrə yaxın yol yatağı genişləndirilir.

Məktəbdə gedən işlər barədə daha ətraflı məlumat aldıq. Belə ki, ikimərtəbəli məktəbin əvvəlki dam örtüyü dəyişdirilib, məktəbin həyətindəki daş pilləkənlər travertin üzlüklərlə, taxta döşəmələr sökülərək parketlə əvəzlənib, siniflərin plastik qapıları müasir dizaynlı mebel qapılarla dəyişdirilib.

Bəzi siniflərin arakəsmələrinin sökülərək yenidən tikilməsi nəticəsində əlavə otaqlar yaradılıb. Bütün bunların nəticəsində şahmat sinfi, elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları yaradılacaq, bufet istifadəyə veriləcək.

Kənddə aparılan tikinti-abadlıq, quruculuq işlərinin nəticəsində tivililərin sosial problemlərinin həlli daha da asanlaşacaq, tibb xidmətinin səviyyəsi müasirləşəcək, müəllim və şagirdlər daha müasir və rahat şəraitlə təmin olunacaqlar.

Bütün bunlardan sonra bu il ilk dəfə məktəbə qədəm qoyacaq 16 şagirdin hər birinin məzun olduqlarında öz müəllimlərini və valideynlərini sevindirəcəyinə daha böyük inam yaranır. Axı onlar ən son texnoloji və tədris avadanlıqları ilə təmin olunan məktəbin ilk qaranquşlarıdır. Qaranquşlar isə həmişə yaz müjdəli olurlar.

***İlk dəfə gəldiyim Tivi kəndindən ayrılmaq çətin olsa da, geri qayıtmalıydıq. Kənd sakinləri ilə sağollaşarkən içimdə bir sevinc var idi. Muxtar respublikamızın daha bir kəndinə heyran olmuşdum. Növbəti dəfə bura gələndə daha müasir bir kəndlə qarşılaşacağıma əmin halda maşına əyləşib yola düzəldik. Yenə bizi qarşıda ilan kimi qıvrılan yollar gözləyirdi. Boz dağların əzəmətli duruşu fonunda yamyaşıl bir tablo kimi dayanan Tivi kəndinin ucaboylu ağacları sərin küləyə qoşulub arxamızca əl edirdilər.***

**Elxan MƏMMƏDOV**

# Dövlət proqramına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqlar təhsilə cəlb olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın qarşıya qoyduğu vəzifələrin icrası aidiyyəti dövlət orqanları tərəfindən uğurla icra olunur.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumata görə, dövlət proqramının müvafiq bəndlərinin icrası ilə bağlı komitə qarşıya qoyulan vəzifələri 2015-ci ilin ilk 8 ayı ərzində həyata keçirməyə çalışıb. Belə ki, dövlət proqramına uyğun olaraq, muxtar respublika üzrə sağlamlıq imkanları məhdud 1975 uşaqdan 342 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyən edilib və onlar haqqında məlumat bazası yaradılıb.

Məlumatda bildirilir ki, 57 nəfər sağlamlıq imkanları məhdud uşaq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən uşaq bağçalarına cəlb edilib.

Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində 12 nəfər sağlamlıq imkanları məhdud uşaq qeydiyyatdadır. Cari ilin ötən dövrü ərzində bu qəbildən olan uşaqların təlim-təhsil işlərinin həyata keçirilməsi məqsədilə mərkəzə komitə tərəfindən 4 uşaq yerləşdirilib.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə "İntibahın şəfəqlərilə böyüyürük biz" mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin uşaqları arasında müsabiqə keçirilib, 24 nəfər sağlamlıq imkanları məhdud uşaq həmin müsabiqədə iştirak edib. Eləcə də muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri və məktəbdənkənar müəssisələrin dərnək üzvləri olan 59 nəfər sağlamlıq imkanları məhdud uşağın iştirakı ilə rəsm, əl işləri, musiqi müsabiqələri keçirilib, qaliblərə və iştirakçılara diplom və hədiyyələr verilib.

Cari ilin müvafiq dövründə rayon (şəhər) İcra hakimiyyətləri və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə muxtar respublikada fəaliyyət göstərən uşaq bağçalarında təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün 56 nəfər müəllim, metodist və tərbiyəçinin iştirakı ilə 2 dəfə kurs təşkil edilib. Kursda məktəbəqədər müəssisələrin müvafiq işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə məruzələr dinlənilib və tədbir iştirakçılarına mövzuya uyğun əyani vəsaitlər paylanılıb.

Bu ilin müvafiq dövrü ərzində komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqlardan əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən 20 uşağın olduğu müəyyənləşdirilib və onlar haqqında məlumat bazası yaradılıb.

Məlumatda o da vurğulanır ki, proqrama uyğun olaraq, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə muxtar respublikanın tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqların, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə tədbirlər keçirilərək maarifləndirici söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Bundan əlavə, muxtar respublikanın 14 uşaq müəssisəsində keçirilmiş monitorinq və seminarlarda müəllim, uşaq və valideynlər arasında müvafiq mövzuda söhbətlər aparılıb və 1100-dən çox maarifləndirici broşürlər paylanılıb.

Cari ilin ilk 8 ayı ərzində komitə tərəfindən əlaqə saxlanılan sağlamlıq imkanları məhdud uşaqların bacarıq və maraqları nəzərə alınaraq 2-si musiqi məktəblərinə, 7-si müxtəlif idman qruplarına, 8-i məktəbdənkənar müəssisələrin dərnəklərinə, müasir informasiya texnologiyalarından istifadə biliklərinin artırılması məqsədilə 14 uşaq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil olunmuş məşğələyə cəlb edilib.

Ümumiyyətlə, proqramın icrası ilə bağlı 2015-ci ilin ilk 8 ayı ərzində komitə tərəfindən 852 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılıb, bu uşaqlardan 5 nəfər uşaq bağçalarına, 4 nəfər Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 2 nəfər musiqi məktəblərinə, 7 nəfər idman məktəbinə, 8 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 60 nəfər muxtar respublikanın ümumtəhsil məktəblərinə (59 nəfəri I siniflərə) cəlb olunub, 10 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə, 14 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə və 1 nəfər Naxçıvan Regional Peşə Tədris Mərkəzinə yönləndirilib.

Müvafiq xəstəliyi olan uşaqlar üçün komitə tərəfindən qanvermə aksiyası təşkil olunub, 6 litrə yaxın qan toplanılaraq həmin uşaqlara köçürülmək üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin qan bankına təhvil verilib.

**Xəbərlər şöbəsi**

# "İnformasiya cəmiyyəti: sosial şəbəkələr və ailə dəyərlərimiz" mövzusunda tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Kəngərli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun Xok kəndində "İnformasiya cəmiyyəti: sosial şəbəkələr və ailə dəyərlərimiz" mövzusunda tədbir keçirilib.***

Tədbiri Kəngərli Rayon İcra Hakimiyyətinin şöbə müdiri Novruz Kətanov açaraq gənclər arasında keçirilən belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov "Sosial şəbəkələr və milli dəyərlərin fundamentində ailə dəyərləri" mövzusunda çıxış edərək bildirib ki, yaşadığımız informasiya cəmiyyətində gənclərin sosial şəbəkələrdən istifadəsini ümumi xarakteristikasına görə iki qrupa bölmək olar. Bir qrup gənclər sosial şəbəkələrdə xalqımızın tarixini, ictimai-mədəni həyatını və dövlətçiliyi təbliğ edir. Bu, hamımız tərəfindən dəstəklənir və xalqımıza, dövlətimizə faydalı olmaqla yanaşı, gənclərin ictimai-siyasi və sosial həyata inteqrasiyası kimi dəyərləndirilir. Bir qisim gənclər isə fəaliyyət və şəxsi həyatlarına xələl gətirəcək, heç bir faydası olmayacaq səpkidə sosial şəbəkələrdə vaxt keçirir. Bu, birmənalı olaraq qəbuledilməzdir və təəssüf doğurur.

Ailəni quran tərəflər bilmədidir ki, sosial şəbəkələrdə qiyabi tanışlıqlar, məktublaşmalar istər-istəməz doğma ailəsini yad bir insanın kölgəsində qoyur. Öz həyat yoldaşını qiymətləndirmək bacarığı məhdudlaşır, ailə və cəmiyyət qarşısında daşıdığı məsuliyyət dayazlaşır. Boşanmaya səbəb olan bu amillər ailə üzvlərinin asudə vaxtının düzgün təşkil olunmaması ucbatından meydana gəlir. Birgə gəzintiyə çıxmaq, istirahət və görməli yerləri dolaşmaq, qohum-əqrəbanın ziyarətinə getmək ata, ana və övlad halqasını daha sıx bir-birinə bağlayır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev "Gənclərin inkişafında sosial şəbəkələrin faydası və zərəri", Naxçıvan Müəllimlər İnstitutunun müəllim-psixoloqu Çapay Quliyev "İnformasiya bolluğunun ailədaxili münasibətlərə psixoloji təsiri" mövzularında çıxış edərək gənclərin sosial şəbəkələrdə aktivliyindən, muxtar respublikada azad informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlərdən, ailələrin müasir dövrdə informasiya bolluğunda düzgün seçim etməsinin yollarından və informasiya-kommunikasiya texnologiyalarından qeyri-düzgün istifadənin ailələrdə yaratdığı psixoloji çətinliklərdən ətraflı bəhs ediblər.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb və onlara broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Gənc rəssamların rənglər dünyası

***Rənglərin insan psixologiyasına təsiri danılmazdır. Rənglərlə bağlı insanlar müxtəlif fikirdə olsalar da, nəfəsalma, qan dövranı, nəbz, əzələ fəaliyyəti rənglərə görə dəyişir. Rənglər insanı fəallaşdıra, sakitləşdirə, həyəcanlandıra, üşüdə və ya isidə, ona narahatlıq və ya rahatlıq gətirə bilər. Rənglərlə ən yaxın olan və bu rənglərlə danışan şəxslər isə, sözsüz ki, rəssamlardır…***





Rəssamların yaratdıqları əsərlər yalnız özləri üçün deyil, bütün bəşəriyyət üçündür və bu əsərlər sərhəd tanımır. Mən bu həqiqəti Fransanın paytaxtı Paris şəhərində yerləşən dünyanın ən böyük və zəngin muzeylərindən sayılan Luvr muzeyini ziyarət edərkən anladım. Dünya şöhrətli rəssamların çəkdikləri əsərlərin önündə diz çökənləri gördüm. Leonardo da Vinçinin rəsm əsərlərindən ən məşhuru və təkrarolunmazı sayılan “Mona Liza” portretini görmək üçün müxtəlif ölkələrdən gələn və saatlarca növbə gözləyən insanlarla qarşılaşdım.

Məşhur rəssam Leonardo da Vinçi deyirdi: “Rəsm çox geniş köklü mədəniyyət və metod üzərində inkişaf etməlidir. Elmsiz və praktika üsulu ilə rəsm çəkəcəklərini zənn edənlər kompassız, sükansız gəminin sakinlərinə bənzəyirlər ki, onlar hara getdiklərini qəti olaraq bilməzlər”.

Bəli, rəssamlıq dərin sənətdir, bu isə ciddi təxəyyül, istedad, əmək, səbir və mütaliə tələb edir. Biz də yazımızda bu sənətin könüllüləri olan, rənglərin diliylə danışan insanlardan – rəssamlardan bəhs etməyə qərar verdik.

Naxçıvan torpağı dahilər, sənətkarlar yurdudur. Bu, əvvəl də belə idi, indi də belədir. Bu torpaq milli rəssamlıq sənətimizin çox görkəmli nümayəndəsi olan Bəhruz Kəngərlinin yurdudur. Milli təsviri sənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması onun adı ilə bağlıdır. Biz Bəhruz Kəngərlini xatırlayaraq onun davamçıları olacaq gənc rəssamlarımızın emalatxanalarına tərəf yollandıq. Qapılardan birini döydük. Qapını gənc bir rəssam açdı. Hal-əhval tutduq. Söhbətimizdən aydın oldu ki, gənc rəssam *Tural Həsənli* rəssamlığa uşaq yaşlarından həvəs göstərib:

– Mən 5 yaşında olarkən rəsm çəkməyə həvəsim yaranmışdı. O zamanlar rəngli flomasterlər çətin tapılardı. Adi karandaşla təbiət qoynunda rəsmlər çəkərdim. Flomaster alandan sonra karandaşla çəkdiyim rəsmləri rəngləyirdim. Bu həvəs getdikcə artdı, beləliklə, mən rəsmlər çəkməyə başladım. Rəngli flomasterlərim qurtaranda isə adətim üzrə yenidən qara karandaşla çəkər, beləliklə, onları bir yerə toplayardım.

– *Yaradıcılığınızda daha çox hansı mövzulara üstünlük verirsiniz?* sualımıza isə belə cavab aldıq:

– Demək olar ki, bütün mövzularda rəsm əsərlərim var. Amma portret və cansız əşyalardan ibarət kompozisiyalar çəkməyə daha çox üstünlük verirəm.

Tural muxtar respublikamızda gənc rəssamlara göstərilən dövlət qayğısını daim öz üzərində hiss etdiyini də vurğuladı:

– Dövlət qayğısı biz gənc rəssamların yaradıcılığına birbaşa təsir göstərir. Belə ki, hər bir gənc rəssam üçün dövlət qayğısı həm maddi imkanların, eyni zamanda da yaradıcılıq şəraitinin genişlənməsinə böyük imkan yaradır. Mən də üzərimdə bu qayğını daim hiss etmişəm.

Tural Həsənli seçdiyi yoldakı yenilik meyillərindən də söz açdı:

– Gələcəyə dair planlarım hələ qabaqdadır, çünki hələ yaradıcılıq üslubumu tam təkmilləşdirməmişəm. Rəssamlıq sahəsində öz dəstxəttimi tapmamışam. Bunun üçün də ciddi bir şəkildə çalışıram. Gələcək planlar isə bundan sonradır.

Gənc rəssam Tural Həsənlinin əl işləri bizi valeh etdi, onun yaradıcılığında, həqiqətən də, hər mövzuda qiymətli rəsmlər tapmaq mümkündür.

Daha bir emalatxanaya daxil olmadan öncə rəssamın giriş qapısına çəkdiyi müxtəlif naxışlar diqqətimizi çəkir. Qapıdan girər-girməz divarlardakı əsərlərin parlaqlığı və rənglərin əlvanlığı bizdə xoş təəssüratlar yaradır, burada insan özünü təbiətin qoynundakı kimi hiss edir.

Öyrənirik ki, *Bəhruz Quliyev* uşaqlıqdan rənglər dünyasında böyüyüb. Onun atası da rəssamlıqla məşğul olurmuş. Bu isə Bəhruzun bir rəssam kimi formalaşmasına çox kömək edib. Qeyd edək ki, Bəhruz Xalq rəssamı Hüseynqulu Əliyevin tələbəsi olmuş, beş il onun təcrübəsindən faydalanmışdır. Bəs, görəsən, gənc rəssam öz üslubuna tapa bilibmi?





– Hələ də üslub axtarışındayam. Bunun üçün gecəli-gündüzlü çalışıram. Və inanıram ki, öz üslubumu tapdıqdan sonra daha mükəmməl rəsm əsərləri yaradacağam.

Yaradıcılığında, əsasən, mənzərə, natürmort və müasir üslubun sintezi əks olunan Bəhruzun rəsm əsərləri öz rəngarəngliyi və özünəməxsusluğu ilə fərqlənir. “Yaradıcılığımda, əsasən, rəngkarlığa üstünlük verirəm”, – deyən gənc rəssamın indiyədək iki rəsm sərgisi olub. Bu sərgilərdən biri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda, digəri isə Bakı Kreativ Sərgi Salonunda baş tutub. Həmçinin Bəhruzun bir çox ölkədə qeyri-rəsmi sərgiləri də olub.

Digər həmsöhbətimiz istedadlı gənc rəssam *Fizzə Quliyevadır*. O da rəssamlığa olan həvəsindən, bu sənətə könül verməsindən söz açdı:

– Uşaq vaxtımdan rəsm çəkməyə böyük həvəsim olub. Orta məktəbdə oxuduğum vaxtlardan muxtar respublikamızda təşkil olunmuş bir çox dərnəkdə iştirak edirdim. Musiqi məktəbində fəaliyyət göstərən rəsm dərnəyinin də üzvü idim. Bununla yanaşı, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə də hazırlıq üçün getmişəm. IX sinifdə oxuyarkən rəssamlıq sənətinin sirlərini daha da dərindən mənimsəmək istədim, bunun üçün ustad emalatxanasında dərs almaq qərarına gəldim. Və Azərbaycanın Xalq rəssamı Hüseynqulu Əliyevlə yollarımız kəsişdi. İki il müddətində Hüseynqulu müəllimdən çox şey öyrəndim və bu, indiki səviyyəyə çatmağımda əhəmiyyətli rol oynadı. Ustadıma çox minnətdaram.



Fizzənin yaradıcılığında portret janrı üstünlük təşkil edir. O, bunu belə əsaslandırır:

– Yaradıcılığımda daha çox portret janrı üstünlük təşkil edir. Portret çəkməyə marağım uşaq vaxtlarından başlayıb. Qeyd edim ki, bu, asan iş deyil, xüsusi bacarıq tələb edir portret çəkmək.

– *Bəs öz üslubunuzu tapmısınızmı?* sualımıza gözlədiyimiz cavabı ala bilmədik:

– Hələ də üslubumu tapmamışam. Ancaq klassik ənənələri öyrənməyə daha çox meyilliyəm. Bu istiqamətdə özümü inkişaf etdirməyə çalışıram.

Rəssam qarşıdakı aylarda öz sərgisini keçirməyi düşünür:

– Bu il payızda ilk fərdi sərgimi açmaq istəyirəm. Çox həyəcanlıyam. Bu sərgi mənim uzun illərdəki əməyimin nümayişi olacaq. Hamını sərgimə dəvət edirəm.

Fizzə xanım teatr rəssamlığına da maraq göstərir. Hətta onu Naxçıvanda teatr rəssamı kimi fəaliyyət göstərən ilk qadın rəssam adlandıranlar da var. Bu barədə bəs onun özü nə düşünür?..

– Bəli, teatr rəssamlığına marağım böyükdür. İki tamaşanın rəssamı kimi fəaliyyət göstərmişəm. Naxçıvanda teatr rəssamlarının içərisində indiyədək qadın olmayıb, bunu nəzərə alsaq əgər, belə deyənlərlə razılaşmalı oluram. Amma yenə də bu işin heç də asan olmadığını qəbul etmək lazımdır. İnanıram ki, bu sahədə daha layiqli işlərlə teatrsevərlərin sevgisini qazana biləcəm.

Qeyd edək ki, muxtar respublikamızda gənclərə göstərilən xüsusi qayğı onları gələcəyə daha da ruhlandırır. İndi dünyada yaranan bütün sahələr üzrə dahilərin yaradıcılığını izləmək, bu yaradıcılıqla yaxından tanış olmaq, digər sənətkarların və modern sənətin inkişafını tam olaraq izləmə imkanına malikik. Bu şərait, qeyd edək ki, çox ölkədə mümkün deyil. Bu səbəbdən bunu biz gənclər üçün ərsəyə gətirənlərə öz minnətdarlığımızı bildirməli və bunun dəyərini dərk etməliyik.

**Nərgiz İSMAYILOVA**

## Cüdo üzrə yoldaşlıq görüşünün qalibi “Culfa” komandası olub

***Naxçıvan şəhərindəki Uşaq-gənclər idman məktəbində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında “Naxçıvan” və “Culfa” komandaları arasında cüdo üzrə yoldaşlıq görüşü keçirilib.***



Naxçıvan Şəhər və Culfa Rayon Gənclər və İdman idarələri ilə Uşaq-gənclər idman məktəbinin birgə təşkil etdiyi yarışda 10 çəki dərəcəsindən 50 idmançı iştirak edib.

Yarışın açılışında çıxış edən Naxçıvan Şəhər və Culfa Rayon Gənclər və İdman idarələrinin rəisləri Xəyal Qurbanov və Ümid Həsənli, Uşaq-gənclər idman məktəbinin dərs hissə müdiri Hikmət Hüseynov yarışın keçirilmə məqsədi və qaydaları haqqında idmançılara geniş məlumat veriblər.

Yekun nəticəyə əsasən, culfalı cüdoçular yoldaşlıq görüşündə naxçıvanlı həmkarlarını 6:4 hesabı ilə məğlub etməyi bacarıblar.

Sonda fərqlənən idmançılara diplom və fəxri fərmanlar təqdim edilib.

## Karate-do üzrə yoldaşlıq görüşü

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının “Naxçıvan” və “Budokan” komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi görüşün açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bildirib ki, bu yarışı keçirməkdə məqsəd məktəbliləri zərərli vərdişlərdən kənarlaşdırmaq, Naxçıvan şəhərində yeniyetmə və gəncləri idmana cəlb etməkdən ibarətdir.

Səkkiz yaş qrupunda 40-a yaxın idmançının iştirak etdiyi görüş “Naxçıvan” komandasının 5:3 hesablı qələbəsi ilə başa çatıb.

Sonda fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində

### *icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqənin vaxtı uzadılmışdır*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq, icra məmuru vəzifələrinə müsabiqə elan etmişdir. Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə çatdırılır ki, sənədlərin qəbulu 2015-ci il noyabr ayının 10-dək uzadılmışdır.

İcra məmuru vəzifələrinə ali hüquq təhsilli, 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər iki ədəd arxası ağ fonda 3x4 sm ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

***Əlavə məlumatlar almaq üçün 545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 690